

TÜRKİYE, HUNGARY, SRI LANKA, MALAYSIA, NIGERIA, PHILIPPINES, KAZAKHISTAN, INDIA, VIETNAM, AZERBAIJAN, PAKISTAN, RWANDA, POLONYA, NORTH MACEDONIA, SOUTH AFRICA, ALGERIA, IRAN, MALAYSIA, UZBEKISTAN, UNITED STATES OF AMERICA, LAOS.

# 16TH INTERNATIONAL CONGRESS ON SOCIAL, HUMANITIES, ADMINISTRATIVE, AND EDUCATIONAL SCIENCES IN A CHANGING WORLD PROCEEDINGS BOOK VOLUME - II

ISBN: 978-9952-8573-3-7
DOI: https://doi.org/10.30546/19023.978-9952-8573-3-7.2025.8979.

**EDITORS**
**PROF. DR. AZİZJON BOBOJONOV**
**PROF. DR. SİBEL KARAKELLE**

# 16th INTERNATIONAL CONGRESS ON SOCIAL, HUMANITIES, ADMINISTRATIVE, AND EDUCATIONAL SCIENCES IN A CHANGING WORLD
## VOLUME - II

JUNE 11-13, 2025
ONLINE & IN-PERSON PARTICIPATION
URGENCH, UZBEKISTAN

# CONGRESS PROCEEDINGS BOOK

## EDITORS

**PROF. DR. AZIZJON BOBOJONOV**
**PROF. DR. SIBEL KARAKELLE**

**BZT TURAN AKADEMİ YAYINEVİ®**
UNITED STATES | AZERBAIJAN
Published in Baku, Azerbaijan
TR: +90543 671 0123 GR: +994 50 300 2920
changingworldcongress@gmail.com
https://changingworldcongress.com/

All rights reserved
**BZT TURAN AKADEMİ YAYINEVİ®**
**BZT TURAN ACADEMY PUBLISHING HOUSE**
**Publishing Date: 21.06.2025**
**ISBN: 978-9952-8573-3-7**
**DOI: https://doi.org/10.30546/19023.978-9952-8573-3-7.2025.8979.**

DOI: https://doi.org/10.30546/19023.978-9952-8573-3-7.2025.8979.

ISBN: 978-9952-8573-3-7

# A NEW APPROACH TO PROJECT-BASED LEARNING IN THE METHODOLOGY OF TEACHING FINE ARTS

**Emil Raul oğlu Ağayev**

Teacher of the subject combination commission "Art and physical education" of the Azerbaijan State Pedagogical College under the Azerbaijan State Pedagogical University

ORCID NO: 0000-0001-9354-0839

## TƏSVİRİ SƏNƏT FƏNNİNİN TƏDRİSİ METODİKASINDA LAYİHƏ ƏSASLI ÖYRƏNMƏYƏ YENİ BAXIŞ

**Xülasə.** Hər bir fənnin tədrisində olduğu kimi təsviri sənətdə də təlimin forma və modellərindən istifadə edilir. Ən mühüm təlim formalarından biri layihə əsaslı öyrənmədir. Bu təlim formasından istifadə etməklə şagirdlərə çətin sual və problemlərə cavab axtarmaq və layihə hazırlamaq üçün mühüm təhsil modelidir. Əlbəttə ki, hər bir şagirddə rəsm çəkmək bacarığı olmur, layihələri təqdim etməklə müəllim şagirdləri təsviri sənət fənnində müxtəlif mövzular üzərində işlədərək, yaradıcı potensiallarını ortalığa çıxarır. Şagirdlər çox vaxt yaradıcı layihələri real təcrübələr edərək, müzakirə edirlər. Layihə əsaslı öyrənmə metodunda şagirdlər fərdi və ya qrup işləri üzərində çalışır. Təsviri sənət fənninin tədrisində müəllim rəssam yaradıcılığı və ya nəzəri tapşırıqları şagirdlərə təqdim edə bilər. Bu zaman şagirdlərdə araşdırma, müzakirə, layihə planının qurulması və dəyərləndirilməsi kimi bacarıqlar formalaşır. Müasir təhsil təkcə nəzəri biliklərin öyrənilməsi ilə yekunlaşmır, biliklərin layihə olaraq təqdimatına əsaslanır.

**Açar sözlər:**Təsviri sənət, layihə əsaslı öyrənmə, metodika, şagird, orta məktəb

**Abstract.** As with the teaching of every subject, various forms and models of instruction are employed in fine arts education. One of the most important instructional approaches is project-based learning. This method provides a valuable educational model that enables students to explore complex questions and problems, and to develop their own projects. While not every student may have a natural talent for drawing, through presenting projects, teachers help students engage with different topics in fine arts and uncover their creative potential. Often, students work on creative projects based on real-life experiences and discuss their outcomes. In project-based learning, students work either individually or in groups. In the teaching of fine arts, teachers can introduce students to the work of artists or theoretical tasks. This approach fosters skills such as research, discussion, project planning, and evaluation. Modern education is no longer limited to acquiring theoretical knowledge alone; it increasingly emphasizes the presentation of knowledge through projects.

**Keywords:**Fine arts, project-based learning, methodology, student, secondary school

DOI: https://doi.org/10.30546/19023.978-9952-8573-3-7.2025.8979.
ISBN: 978-9952-8573-3-7



Orta məktəblərdə təsviri sənət fənninin tədrisi metodikasında mühüm təlim modellərindən biri layihə əsaslı öyrənmədir. Şagirdlərə öyrədilən nəzəri biliklər onlara maraqsız gələ bilər. Təsviri sənət fənninin tədrisi metodikasında təkcə nəzəri biliklərin öyrənilməsi deyil, onların tətbiqi də ön plana çıxarılmalıdır. Layihə əsaslı öyrənmə üzərində çalışan şagird biliklərini yaradıcı formada tətbiq edərək, həm də daha yenilikçi olmağa çalışır.

Təsviri sənət fənninin tədrisi metodikasında layihə əsaslı öyrənmədə şagirdlərə aşağıdakı mövzular təqdim edilə bilər:

-rəssam yaradıcılığı;

-nəzəri biliklərin əsərlər üzərində tətbiqi;

-incəsənət əsərlərinin layihə əsaslı formada təhlili.

Layihə əsaslı öyrənmə ilk olaraq sualın qoyuluşu ilə başlanılmalıdır. İlk növbədə sualın qoyuluşunda hər hansı mövzu haqqında sual müəyyən edilməli, yığcam və şagirdləri özünə cəlb edən məzmunda olmalıdır. Bu mərhələdə müəllim şagirdi təsviri sənətdən keçdiyi mövzu barəsində esse layihəsi hazırlamağı tapşırmalıdır. V sinif şagirdləri "Xalq geyimləri" haqqında mövzusu haqqında layihə işləyərkən, onlar geyimlərin eskizlərini, ümumi quruluşunu araşdırırlar.




**İLL 1. Qadın xalq geyimi**

DOI: https://doi.org/10.30546/19023.978-9952-8573-3-7.2025.8979.
ISBN: 978-9952-8573-3-7

Təsviri sənət fənninin tədrisi metodikasında layihə əsaslı öyrənmənin növbəti addımında plan tərtib edilməlidir. Burada müəllim şagirdlərə fasilitator kimi dəstək göstərməlidir. Plan hazırlanması zamanı şagirdlər aktiv iştirak etməlidir, resurslar, vəzifələrin düzgün bölgüsü və ən əsası komandanın bir-birini dəstəkləyərək, birlikdə uğur qazanmalarına inandırmaq lazımdır. VI sinif şagirdlərinə “Miniatür rəngkarlığı” mövzusunda layihələr işləmək tapşırmaq olar. Bu zaman şagirdlər tanınmış miniatürçü rəssamlar haqqında layihə təqdim edə bilərlər. Şagirdlər resursları kitabxanadan və elektron olaraq internetdə araşdıra bilərlər.

Daha sonra yaradıcı məhsulun hazırlığı və komandanın layihəyə uyğun loqosu şagirdlər tərəfindən düşünülməlidir. Şagirdlər əldə etdikləri məlumatları birlikdə sinifdə və ya qruplar yaradaraq onlayn formada müzakirə edə bilərlər. VI sinif şagirdləri “Təsviri sənət əsərlərində məzmun” mövzusunu layihə kim tapşırarkən, onlar janrlardan biri haqqında araşdırma və əsərlərdən ibarət kollaj yaradaraq komandanın loqosu kimi yaradıcı qabiliyyətlərini inkişaf etdirə bilərlər.

Əlbəttə ki, layihəni işləyərkən müəllim doğru istiqamət verə bilər. Şagirdləri uğura doğru inandırmalı və resurslarla təmin etməlidir. Xüsusilə incəsənət əsərinin təhlili zamanı şagirdlərə müəyyən dəstək edilməlidir. VII sinif şagirdlərinə “Avtoportret” mövzusunda layihə zamanı tanınmış rəssam Rembrandt Van Reyn yaradıcılığının məşhur əsərlərindən birini şagirdlərə müstəqil olaraq özlərinin seçməsini və təhlil etmələrini də layihə kimi təqim edə bilər.





**İLL 2.Rembrandt “Səfil oğulun qayıtması”** **İLL 3. Rembrandt “Gecə gözətçiləri”**

Layihə tamamlanandan sonra qiymətləndirmə aparılmalıdır. Bu zaman proses dəyərləndirilməli və nəticələr yoxlanılmalıdır. Təsviri sənətdən layihələri təqdim edərkən şagirdlər özləri müzakirələrdə iştirak edərək, öz hisslərini ifadə etməlidirlər. Şagirdlər layihələrini təqdim etməmişdən əvvəl tam formada layihələrini işləməlidirlər.

Layihə əsaslı öyrənmə zamanı təsviri sənət müəllimi bir neçə məqamları nəzərə almalıdır:

-təsviri sənətdən mövzu şagirdlərin bilik, bacarıq və yaş səviyyəsinə uyğun olaraq çətin və yaradıcı olmalıdır;

-şagirdlər dərin və davamlı araşdırma aparmalıdırlar;

-layihələrin təqdimatı zamanı həm araşdırdıqları mövzunun yazı hissəsini, həm də mövzuya uyğun rəsm çəkmə bacarıqlarını nümayiş etdirə bilərlər;

-şagirdlər mövzunun təqdimatı zamanı rəqəmsal texnologiyadan istifadə edə bilər.

| Təsviri sənət fənninin tədrisi metodikasında layihə əsaslı öyrənmənin rolu: |
|---|
| şagirdlər təsviri sənətdən geniş əhatəli mövzuları araşdırmalıdırlar; |
| müəllim fasilitator kimi yaxından iştirak edir; |
| həftəni əhatə edərək, şagirdlər üçün araşdırmağa daha çox vaxt verilir; |
| qiymətləndirmə mürəkkəb xarakterə malikdir |

**ƏDƏBİYYAT SİYAHISI:**

1.Ümumtəhsil məktəblərinin V sinfi üçün təsviri incəsənət fənni üzrə dərslik. Bakı 2020. 80 s.

2. Ümumtəhsil məktəblərinin VII sinfi üçün təsviri incəsənət fənni üzrə dərslik. Bakı 2022. 96 s.

3.Metodika və pedaqogika. Bakı 2024. s 94-96.